**Nadir Bəyməmməd oğlu Əkbərov**
**UNEC, doktorant**
**E-mail: akbarov.nadir.1@gmail.com**
**https://orcid.org/0000-0002-0465-1770**
**UOT:334.021.35; JEL: E29; E69.**

# Dövlətin iqtisadi funksionallığının artırılması-müasir inkişaf çağırışı kimi

***Xülasə***

*Məqalədə bazar münasibətləri şəraitində dövlətin iqtisadi fəaliyyətdə iştirakının nəzəri-metodoloji və tarixi inkişaf xüsusiyyətləri tədqiq olunur və müasir dövrün adekvat çağırışları şərh edilir. Nəzəri-metodoloji təkamülün əsas trendlərini identifikasiya edərək, məqalədə qeyd olunur ki, dövlətin iqtisadiyyatda iştirakı, yalnız marjinal faydalılığın yox, daha çox dövlət idarəçiliyinin ümumi – maddi-mənəvi səmərəliliyinin yüksəldilməsinə, onun funksionallığının, dövrün tələblərinə müvafiq genişlənməsinə istiqamətlənmişdir. Məqalədə həmçinin geniş tədqiqatların bilavasitə yekunu kimi, müstəqillik dönəmində Azərbaycanda dövlətin iqtisadi fəaliyyətdə iştirakının xüsusiyyətləri qiymətləndirilmiş, əsaslı iqtisadi islahatlara rəğmən dövlətin iqtisadi funksionallığının yüksələn xətlə davam etməsi xətti, konkret faktoloji materiallarla ətraflı şərh olunmuşdur.*

***Açar sözlər:*** *iqtisadi siyasət, funksionallıq, idarəetmə, resurs, inkişaf, tarazlıq, davamlılıq, dayanıqlıq, rasionallıq, sosial inkişaf*

## Giriş

Qloballaşmanın güclənməsi iqtisadi münasibətlərin təkamülü, xüsusi ilə idarəetmənin xarakterində əhəmiyyətli dəyişiklər doğurmaqdadır. Liberalaşmanın dərinləşməsi iqtisadi idarəetmədə ilk baxışda ziddiyyətli görünən bəzi meyillərin dayanıqlı trendlərə çevirilməsini aktuallaşdırır. Belə meyillərdən biri, dövlətin iqtisadi idarəetmədə rolu ilə bağlıdır. Dünya təcrübəsində bilavasitə iqtisadi fəaliyyətdə dövlətin iştirakının məqbul çərçivədə sərhədlənməsi, onun bütövlükdə tənzimləyici rolunun genişlənməsinə ciddi maneələr yaratmır. Əksinə beynəlxalq inteqrasiyanın sürətlənməsi, qlobal maliyyə axınların milli iqtisadiyatlara nüfuz forma və vasitələrinin çoxalması, indiki inkişaf mərhələsində, dövlətin tənzimləyici rolunun mahiyyətinin transformasiyasını şərtləndirir. Bütövlükdə belə transformasiya, xüsusi ilə formalaşmaqda olan bazara malik ölkələrdə, o cümlədən Azərbaycanda dövlətin iqtisadi funksionallığının genişlənməsini zəruri edir. Lakin aydındır ki, bazar münasibətləri şəraitində, iqtisadi funksionallığın genişləndirilməsi, sadəcə dövlət aktivlərinin çoxalması və ya mükiyyətin mililəşdirilməsi hesabına iqtisadi fəaliyyətdə onun payının artırılması sayəsində deyil, tənzimləyici funksiyasının çevikliyinin yüksəldilməsi və təsirliliyinin gücləndirilməsi ilə şərtləndirilməlidir.

## Dövlətin iqtisadi funksionallığının nəzəri mahiyyəti və təkümülü

Dövlətin iqtisadiyyatda rolu və funksionallığını şərtləndirən ideyalar və təsbitlərin qədim tarixi vardır. İlkin sistemli elmi baxışların meydana gəlməsi isə əsasən, Smitin liberalizmin mahiyyəti haqqındakı konsepsiyasının fərqli şərhləri ilə bağlıdır. Dövlətin təkamülü, həmçinin təbii resursların və yaradılan sərvətin bölüşdürülməsindəki assimetriya və sosial bərəbərsizliklərin tarixən sürətli dərinləşməsi fonunda, bu problemə yanaşmaların geniş dispersiyası yaranmışdır. Məsələn A.Smitin “Xalqların sərvətinin səbəbləri” əsərində, şərh edilmiş dövlətin iqtisadiyyatdakı rolu haqqında, klassik liberalizmin “konstitusiyası” səviyyəsinə qalxmış baxışları, bir sıra tanınmış alimlərin qənətinə görə, mahiyyət etibarı ilə, sosial ədalətlilik, etika və tam rifah kontekstində izah edilmişdir (9). Məlum olduğu kimi, uzun illər ərzində iqtisadi fikirdə dominant olan Smitin dövlətin roluna baxışları, neoklassik cərəyanın yaranması ilə, ənənəvi əhəmiyyətini azaltsa da, XX əsrin ikinci yarısında yenidən polemika mövzusuna çevirilmişdir. Burada ən mübahisəli məqamlardan biri, Smitin dövləti “gecə gözətçisi” kimi görməsi ilə bağlı qiymətləndirmələrdir. Araşdırmalar göstərir

ki, əslində Smitin əsərlərində məsələnin belə qoyuluşu yoxdur və əksinə o, ictimai xidmətlərin təklifi, sosial bərabərsizlik və yoxsulluğun yumşaldıcısı kimi dövlətin roluna çox önəm verirdi. Məsələn, Smitin "dövlət xərcləmələrinin maliyyələşməsində varlılar, hamı kimi öz sərvətlərinin nisbəti ilə deyil, daha yüksək paylarla iştirak etməlidir", "cəmiyyətin rifahı naminə qeyri-bərabərsizlik aradan qaldırılmalı və ədalətlilik təmin olunmalıdır" kimi tezisləri indi də aktuallığını saxlamaqdadır. Lakin qeyd etməyi vacib hesab edirik ki, Monçinskinin dediyi kimi, Smitin dövlətin roluna münasibətinin fəlsəfəsini təşkil edən belə qiymətləndirmələr, əslində geniş yayılmış və bir çox hallarda səhvən Smitə aid edilən, təsərüfatçılıq subyektlərini "homo economicus" kimi rasional qəbul edən, "bazar mexanizmi və "gözəgörünməz əl" xarakterli liberal baxışlarla üst-üstə düşmür. Bir sıra tanınmış iqtisadçılar Smitin müvafiq baxışlarının neoklassik nəzəriyyədən ən əhəmiyyətli fərqini, məhz bu məqamda axtarırlar. Belə ki, hətta iqtisad elminin sütunlarından biri olan Keyns, neoklassik doktrinanın əksinə olaraq qətiyyətlə hesab edirdi ki, iqtisad elmi insanların dəyərlər sistemini, gözləmə motivləri və psixoloji "ehtiyatlılığını" ehtiva edən ictimai, mənəvi xarakterə malikdir. Ona görədə, klassik elmi ümumiləşdirmələrlə "sağlam" düşüncədən alınan nəticələr arasında tez –tez ziddiyyətlər yaranır. Belə ziddiyyətləri ən çox rast gəlindiyi istiqamətlərdən biri məhz dövlətin iqtisadiyyatda rolu ilə bağlıdır.

Məlum olduğu kimi, dövlətin ən mühüm və ənənəvi fəaliyyət istiqamətlərindən birini sosial-iqtisadi nizamın yaradılması və qorunması təşkil edir. Bu istiqamətin realizasiyasında dövlətin əsas vəzifələri, onun tənzimləyici, bölüşdürücü və stabilləşdirici funksiyaları ilə təmin edilir. Qarşılıqlı bağlı olan bu funksiyalar hüquqi sistemin yüksək effektivliyi ilə təmin edilən resursların allokasiyası və yenidən bölüşdürülməsinin elə mexanizminin formalaşdırılmasını tələb edir ki, bu zaman iqtisadiyyatda müəyyən stabilliyə nail olunur. Fikrimizcə məhz bu anlamdan çıxış edərək, sistemliliyə malik olan iqtisadiyyatın ümumən "özünü inkişaf"qabiliyyətinin təmin edilməsi hər bir mili iqtisadi siyasət qurucusu üçün əsas hədəflərdən hesab olunur. Müasir inkişaf mərhələsində dövlət idarəçiliyi modellərinin əsaslandırılmasında məsələni qəlizləşdirən ən mühüm məqamlar, azad bazarın iqtisadiyyatda aparıcı hərəkətverici qüvvə olmasını qəbul edən klassik və neoliberal konsepsiyaların, ictimai və etik-mənəvi problemlərə fərqli yanaşmasıdır. Məsələ ondadır ki, neoliberal yanaşma hesab edir ki, azad bazar mexanizmi bütün iqtisadi problemləri yetərincə səmərəli həll etdiyindən dövlətin iştirakına ehtiyac yoxdur. Lakin belə yanaşma mahiyyət etibarı ilə, Smitin bazar mexanizmi ilə məhdudlaşmayan, etika və mənəviyyata əsaslanan klassik liberalizm prinsiplərinə, "görünməz əl" qaydasına, ədalətlilik məhfumuna ziddir. Təcrübə göstərir ki, əsaslı iqtisadi, texnoloji və idarəetmə islahatları dövründə, ictimai dəyərlər sistemində tarazlığın, sosial normaların, formalaşmış institusional mühitin pozulması ilə şərtlənən xaotik vəziyyətin yaranmasını ehtiva edən anomiya riskləri mövcuddur. Çünki, iqtisadi münasibətlərdə humanitar dəyərləri çox tez məhv edən bazar kriteriyaları daha dağıdıcı rol oynayır. Maraqların ziddiyyəti ilə şərtlənən hədəflərin fərqliliyi, iqtisadi münasibətlərdə fərdi meyarların paralelliyini doğurur və ona görədə iqtisadiyyatda anomiya daha qabarıq formada təzahür edir. İqtisadi fikir tarixində belə bir, kifayət qədər "qədim" mülahizə mövcuddur ki, nizamın effektiv qorunmasının təmin olunmadığı dövlətlərdə qanunlar daha çox yaradılır. Azərbaycanda bu sahədə vəziyyət də fikrimizcə ideal hesab edilə bilməz. Məsələn, müstəqilliyimizlə yaşıd olan iqtisadi transformasiya dövründə say etibarı ilə olduqca çox müxtəlif qanunlar, dövlət proqramları, strategiya və konsepsiyalar qəbul edilmişdir. Onların əksəriyyəti işlək sənədlərə çevrilsə də, əhəmiyyətli hissəsi haqqında bu fikri demək mümkün deyildir. Lakin bununla bərabər bir sıra mühüm iqtisadi proseslərin tənzimlənməsi üçün zəruri normativ bazanın hazırlanması təəssüf ki, indiyədək təmin edilməmişdir. Liberal iqtisadi münasibətlərin formalaşmasında həlledici əhəmiyyətə malik rəqabət qanunvericiliyi, yerin təki haqqında, dövlət aktivləri və maliyyə axınlarının idarəçiliyi haqqında, maliyyə nəzarəti, qiymətli kağızlar və maliyyə bazarları sahələrdə təkmil

qanunvericilik halədə yoxdur. Lakin bəzi sahələrdə, hətta ayrı-ayrı məhsul istehsalı (pambıqçılıq, çayçılıq və s) üzrə qanunlar qəbul edilmiş, bəzi qanunlar isə mütəmadi olaraq sürətli dəyişiklərə məruz qalır (vergi məcəlləsi, bank qanunvericiliyi, sosial qanunvericilik, büdcə qanunvericiliyi və s). Qeyd etməyi vacib hesab edirik ki, dövlət idarəçiliyində, o cümlədən iqtisadi idarəetmədə anomiyanın güclənməsi, müasir inkişaf mərhələsində faktiki olaraq qlobal xarakter daşıyır. Burada isə mühüm amil fikrimizcə, mahiyyət etibarı ilə universal xarakterə malik "inkişaf" anlayışının identifikasiyasının polemikliyidir. Tanınmış tədqiqatçı İ.Saks inkişafı yalnız iqtisadi, sosial və ekoloji sferalarda proqressin əldə olunduğu hal kimi, başa düşülməsinin vacibliyi tezisini irəli sürmüşdür (12). Hesab edirik ki, Saksın belə yanaşması yetərincə əsaslı və praqmatik xarakterli olmaqla tarazlı məzmunu ehtiva edir.

**Cədvəl 1.**

**Artım və inkişafın təzahür formaları**

| Artım və inkişafın təzahür formaları | İqtisadi sfera | Sosial sfera | Ekolji sfera |
|---|---|---|---|
| Qaydasız (vəhşi) iqtisadi artım | + | - | - |
| İctimai mahiyyət baxımında müsbət artım | + | + | - |
| Mühüt üçün faydalı artım | + | - | + |
| İnkişaf | + | + | + |

Çoxsaylı ekspertlərin, bizim də razılaşdığımız qiymətləndirdirmələrinə əsasən, üçqat tənzimlənmə tələb edən belə yanaşmanın təcrübədə tətbiqi kifayət qədər çətindir. Belə ki, sosial-iqtisadi nizamsızlıq və onunla şərtlənən diskomfort mühitdə anomiya daha böyük dərinliyə malik olur. Çünki qlobal qeyri-tarazlıq və sosial bərabərsizlik, rəqəmsal inqilab, bazar fundamentalizmi və ölçmənin səhvləri ciddi anomiya yaradıcı faktorlara çeviirlir. Çünki belə şəraitdə siyasətdə və ya hüquq yaratma və təminetmədə, zərərli meyllər və onların sinergetik effektini artıran kənarlaşmalar üçün "əlverişli" imkanlar açılır. Müasir inkişaf mərhələsinin yuxarıda şərh olunan "mənzərəsi", bəşəri inkişafda yaranan yeni tendensiyaların qarşısının alınmasını yox, onların düzgün yönləndirilməsi və təhsisedici qərarların qəbulunu aktuallaşdırır. Belə olan halda isə cəmiyyətin və iqtisadiyyatın idarəçiliyində dövlətin rolunun yenilənməsi, onun fuksionallığının gücləndirilməsi mühüm vəzifəyə çevirilir. Dövlətin iqtisadiyyatdakı rolunun yeni vəzifələri nəzəri planda Q. Kolodkonun "yeni praqmatizm iqtisadiyyatı" konsepsiyasında dolğun əks olunmuşdur. Kolodko, neoklassik baxışların yeni şəraitdə özünü tam doğrultmamasını qeyd edərək, ordoliberaizmə yaxın mahiyyətli "yeni praqmatizm" ideyasını təşviq edir. (7) Bu yanaşmaya görə, cəmiyyətin iqtisadi, ictimai və ekoloji maraqların uzlaşdırılmasını ehtiva edən tarazlıq konsepsiyası, yeni praqmatik iqtisadiyyatın formalaşmasını təmin edəcəkdir. Yeni konsepsiyanın mahiyyətinə görə, tarixi-mədəni, təbii-coğrafi faktorların nəzərə alınması şərti ilə sosial-iqtisadi inkişafda harmoniyanın təmin edilməsi zərurəti, dövlətin rolunun məhdudlaşdırılmasını yox, əksinə gücləndirilməsini tələb edir. Eyni zamanda Kolodko qeyd edir ki, dövlətin rolunun məhdudlaşdırılması və ya əksinə gücləndirilməsi iqtisadi artıma bir başa təsir etmir. Başqa sözlə dövlət, iqtisadiyyatda "kiçik" və ya "böyük" yox "düzgün", "ucuz" və ya "bahalı" yox "səmərəli" olmalıdır. Kolodko doğru olaraq qeyd edir ki, dövlət səmərəli fəaliyyət göstərməlidir. Belə fəaliyyət isə əslində, kifayət qədər "bahalıdır" (7). Dünya təcrübəsində son dövrlərdə dövlətin rolu haqqında yeni-yeni konsepsiyalar yaranmaqdadır ("rəqəmsal dövlət", e-dövlət, sahibkar dövlət və s). Sahibkar dövlət dedikdə, iqtisadiyyatda innovasiyalığın stimullaşdırılmasını təşviq edən model başa düşülür. İnnovasiyanın stimullaşdırılması dedikdə isə, yalnız indiyədək mövcud olan "vəsaitlərin qayıtması" qaydası nəzərdə tutulmamalıdır. Belə yanaşmada, uğurlu layihələrin gəlirlərindən dövlətin pay hüququnu ehtiva edən biznes qaydaları

üstünlük təşkil etməlidir. Dövlət belə "payların" sayəsində yeni innovasiyaların stimullaşdırılması üçün vəsaitləri akkumliyasiya edərək, gəlirlərin "mənimsənilməsi, özəlləşdirilməsi" və zərərlərin "milliləşdirilməsi" kimi xoşagəlməz sindromlardan yayına bilər (11). Bu konsepsiya, mahiyyət etibarı ilə dövlətlə bazarın qarşılıqlı əksliyi haqqındakı təsəvvürləri dağıdır. Məsələn, Saks qeyd edir ki, bazarın ictimai funksiyaları yerinə yetirməsini istəyiriksə, o hökmən dövlət tərəfindən tənzimlənməlidir. Nobel mükafatçısı E.Felpsin fikrincə isə, heç bir bazar, onun fundamentini təşkil edən publik təşkilatlarsız mövcud ola bilməz. Belə təşkilatlar isə həmişə qarşılıqlı bağlılığa malikdir. Ona görədə ölkənin inkişaf potensialının genişləndirilməsi üçün, inklyuziv ictimai-iqtisadi sistemin formalaşdırılması vacibdir. İnklyuzivlik isə, innovasiyalılıq, rəqabətqabiliyyətlilik və səmərəliliyin hərəkətvericisi olmaqla "müstəqil" bir dəyərdir. İnklyuziv iqtisadiyyat, iştirakçıların müstəqilliyi, bərabər hüquqluğu çərçivəsində, tərəfdaşlıq münasibətləri və qarşılıqlı asılılığa malik elementlərdən formalaşmış sistemdir. Burada münasibətlərdə "dövlət-vətəndaş-biznes-ictimai qruplar" sistemindəki iyerarxiya və tabeçilik fəlsəfəsi proritetliyə malik deyildir. İnklyuziv dövlət, ədalətlilik və qanunlara hörmət şəraitində, kreativliyi və innovasiyalılığı təşviq etməklə müvafiq instituların inkişafını, qanunlarına münasibətdə bərabərsizliyin yolverilməzliyini təmin etməlidir.

Dünya təcrübəsi sübut edir ki, dövlət sanki əbədi bir institut olmağına rəğmən, həm də bazarın inkişafı ilə dəyişir. Son dövrlərdə dövlətin rolu haqqında müzakirələrin intensivləşməsi, elmi-texniki nəaliyyətlər sayəsində iqtisadiyyatda struktur böhranlarının tezləşməsi ilə bağlıdır. Məsələn böyük texnoloji potensiala malik, rəqəm inqilabı, qlobal horizontal əlaqələri genişləndirməklə, iqtisadi fəaliyyətin əksmərkəzsizləşdirilməsi və sərbəstliyin yüksəlməsinə ciddi təsir edir. Vertikal əlaqələrin mənfiliklərini məhdudlaşdırır. Belə olanda isə, ayrı-ayrı ölkələrin xüsusiyyətləri fonunda dövlətin rolunun qlobal çağırışlara adekvatlığının təmin olunması asanlaşır. Məhz bu prizmadan çıxış edərək Vallersatyn iddia edir ki, yeni dəyişiklər bir neçə "dünya –sistem" yaranmasını doğurur (12). Kapitalizmin inkişafı ilə, təsərrüfatçılıqda ideoloji mübarizənin köklərinin sürətlə zəifləməsi baş verdi, "ekonomiks" dövrü başladı. Bu dövrün əsas ideya daşıyıcıları, A.Marşall dövlətin rolu haqqında yalnız vergi yükünün ağırlıq mərkəzinin dəyişməsi ilə bağlı məsələlərdə, L.Valras, ictimai nemətlərin istehsalı və inhisarçılığın tənzimlənməsi ilə məşğul olan "minimal dövlət" prizmasında qiymətləndirmələri vacib hesab edirdi. Lakin tanınmış neoklassiklər, K.Viksell, V.Paretto, A.Piqu isə, ictimai xərclərini həddinin və maliyyələşdirilməsini müxtəlif modellərini təklif edərək, dövlətin iqtisadiyyatda daha az iştirakı üçün yeni mexanizmlər irəli sürürdü.

Neoklassik iqtisadi nəzəriyyədə dövlətin iştirakına əsaslanan iqtisadi siyasətin xarakteri məsələsi ilə bağlı əsaslı inqilabi dəyişiklər Keynsin adı bağlıdır. Bazarın özütənzimlənən təkmil mexanizm kimi heç də həmişə özünü doğrultmamasını əsas götürərərk, Keyns bazarın "səmərəli tələbi" müəyyən edə bilməməsi ideyasını irəli sürmüşdü. Keyns hesab edirdi ki, dövlət pul-kredit və büdcə siyasəti vasitəsi ilə iqtisadi dövriyyədə səmərəli tələbi yaratmalıdır. Səmərəli tələb isə, özəl investisiya və istehlak xərclərinin stimullaşdırmaqla milli gəlirin sürətli artımını təmin edə bilər. II dünya müharibəsindən sonrakı dövrdə Keynsin bu ideyası, qarışıq iqtisadiyyat və "ümumi rifah dövləti" nəzəriyyəsi tərəfdarlarının proqram sənədinə çevirildi. Yeni keynsçilər bu dövrdə, iqtisadi artımın faktorları və templəri arasında nisbətlərin dinamikasını təhlil edərək məşğulluq və inflyasiya arasında optimal münasibətlərin formulunu tapmağa çalışırdı. Lakin, keçən əsrin 70-ci illərində iqtisadi inkişafda inflyasiyanın güclənməsi, istehsalın azalması və işsizliyin çoxalmasının eyni zamanda baş verməsi, keynsçi paradiqmada ciddi problemlərin olduğunu göstərdi. XX əsrin sonlarında isə, neoklassikanın yeni istiqamətləri (monetarizm, yeni klassik iqtisadiyyat, ictimai seçim nəzəriyyəsi və s.) keynsçiliyi ciddi şəkildə sıxışdırmağa başladı. Belə istiqamətlər sırasında mühüm əhəmiyyət kəsb edən "yeni klassik iqtisadiyyat" - neoinstitusionalizm mahiyyət etibarı ilə dövlətin iqtisadiyyatda fəal iştirakının bazar mexanizminin səmərəliliyini aşağı saldığını iddia edir. Tanınmış

tədqiqatçı R.Kouzun 1960 ildə təklif etdiyi teorem bu iddianın sübutu hesab edilir. Lakin neoinstitusinalistlərdə qəbul edir ki, mülkiyyət hüquqlarını spesifikasiya edən və müqavilə öhdəliklərinin yerinə yetirlməsini təmin edən dövlətin iştirakı olmadan, mübadilənin mürəkkəb formalarının istifadəsi mümkün olmazdı. Belə mürəkkəb mübadilə formalarına ən yaxşı nümunə fikrimizcə, ictimai seçim konsepsiyasının (C.Byukenen, H.Tallok,M.Olson və s.) dövlətin iqtisadiyyata müdaxiləsinin səmərəliliyini böyük şübhə altına salan mülahizələri hesab edilir. Mahiyyət etibarı ilə bu istiqamət tərəfdarları, siyasətin rasionalığı haqqındakı fikirləri qəbul etməyərək, fərdilik prinsipinin yalnız kommersiya fəaliyyətində deyil, həm də siyasətdə həlledici olmasını ehtiva edən "iqtisadi imperializm" tezisini irəli sürürlər.

Ordoliberal və ya alman "nizam nəzəriyyəsi" tərəfdarlarının (V.Oyken, F.Bem, A.Müller-Armak) irəli sürdükləri "sosial bazar təsərrüfatı" konsepsiyasının metodoloji əsaslarını, siyasi, iqtisadi, sosial və hüquqi nizamların qarşılıqlı asılılığa malik olması səbəbindən dövlətin, azad rəqabətə əsaslanaraq bazarı yaratmasının zəruriliyi mülahizələri təşkil edir. Bazarı sosial xidmətə yönləndirməklə, fərdilik və kollektivçilik arasında uçrumun aradan qaldırılmasının mümkünlüyünü qəbul edən sosial bazar təsərrüfatı ideyası, kifayət qədər əsaslı elmi arqumentlərə söykənməklə, hətta ən ağır şəraitdə belə sosial yönlü iqtisadi siyasətin mümkünlüyünü göstərir. Məhz bu prinsiplər əsasında müharibədən sonrakı dövrdə alman iqtisadi "möcüzəsi" baş vermişdi. Bu möcüzənin arxitektoru və memarı olan Lüdviq Erhardın müəyyənləşdirdiyi -iqtisadi siyasət, vətəndaşlara aydın olmalı; doğruluğuna insanlar inanmalı; ardıcıl və açıq olmalı; taktiki baxımdan düzgün plaanlaşdırılmalı, yəni yalnız uzunmüddətli dövrdə mümkün olacaq nəticələrə yox, həm də insanların gözləməsi baxımından "ağlabatan" müddətlərə hədəflənməlidir kimi prinsiplər, mahiyyət etibarı ilə iqtisadi siyasətin kompleksliliyi və praqmatikliyini ehtiva edir. Qeyd etməyi vacib hesab edirik ki, qeyd olunan tələblərə əməl olunması baxımından ən yaxşı nümunələrdən biri fikrimizcə Çin xalq respublikasında Den Syo Pinin rəhbərliyi ilə XX əsrin 80-90 illərində rəvac götürən və indi də uğurla tətbiq edilən, "inkişaf ocaqları" vasitəsi lə reallaşdırılan iqtisadi siyasət hesab oluna bilər. Çox böyük əhali və ərazi arealında sistemli islahatları uğurla təmin edən Çin hökumətinin iqtisadi siyasətində beş illik planlaşdırma üsulu ilə müəyyənləşdirilən "inkişaf zolaqları" xarakterli islahat siyasəti, ölkənin Şərqindən Qərbinə doğru ardıcıl hərəkətlərə fenomenal nəticələri doğurmuşdur.

**Azərbaycanda dövlətin iqtisadi funksionallığının evolyusiyası**

Milli iqtisadi inkişaf strategiyaları üzrə araşdırmalar göstərir ki, Azərbaycanda son təxminən 20-25 il ərzində dövlətin iqtisadi fəaliyyətdə rolu ilə bağlı sərgilədiyi trendlər, müxtəlif zaman kəsimlərində (hətta fərqli siyasi qüvvələrin hakimiyyətinə rəğmən), bəzi cəhətləri ilə əsaslı fərqlənsədə bir sıra fundamental meyillər baxımından kifayət qədər ardıcıl xarakterli olmuşdur. Məsələn müstəqilliyin ilk illərindən bəyan olunan, iqtisadi münasibətlərin liberallaşdırılması və müvafiq iqtisadi sistemin qurulmasının hədəflənməsi, o cümlədən özəl sektorun formalaşdırılması, torpağın və ictimai əmlakın özəlləşdirilməsi, xarici investisiyanın cəlbinin stimullaşdırılması, iqtisadi artımım dəstəklənməsi və s kimi məqsədlər həmişə fundamental iqtisadi islahatların əsas prioritetləri sırasında olmuşdur və indidə qalmaqdadır. Aydındır ki, dərin və geniş spektrli islahatların realizasiyasının nəticəliliyində məqsədlərin seçimi ilə yanaşı, onların zəruri dəstəkləyici və önləyici tədbirlərinin görülməsi, ardıcıllığının düzgün seçimi olduqca mühüm əhəmiyyətə malikdir. Bu baxımdan isə, təəssüf ki, təhlil dövründə (2,3,4) ölkəmizdə heç də həmişə iqtisadi siyasətdə düzgün qərarların qəbul edildiyini müşahidə etməmişik. Məsələn, ekspert qiymətləndirmələrinə əsasən, 1992-ci ilin əvvəlində xarici ticarətin tələsik liberallaşdırılması, ölkədən xaricə btütn növ aktivlərin sürətli axınına səbəb olmaqla, onsuzda ağır günlər yaşayan iqtisadiyyatda böhranın daha da ağırlaşmasına, inflyasiyanın dərinləşməsinə "dəstək" oldu. Həmin ildə özəlləşdirilmə proqramının zəruri hüquqi baza olmadan qəbulu, mühüm əhəmiyyətə malik zəruri prosesin-iqtisadiyyatın

dövlətsizləşdirilməsinin ləngiməsinə və əhalinin iqtisadi islahatlara inamının itməsinə səbəb oldu. Əvəzində isə dövlət aktivlərinin istifadəçiliyində onsuzda mövcud olan qeyri-səmərəli istifadə halları daha da çoxaldı. 1992-ci ilin yayında milli valyutanın, faktiki olaraq müstəqil pul-kredit və bank sisteminin, mübadilə mexanizmi və məzənnə sisteminin mövcud olmadığı şəraitdə zəruri hazırlıqsız dövriyyəyə buraxılması, iqtisadiyyatda ödəmə sisteminin iflicinə gətirdi və milli valyutanın qısa zamanda on dəfələrlə dəyər itirməsinə səbəb oldu. Təbiidir ki, müstəqilliyin ilk illərində iqtisadi siyasətdə qərarların qəbulunda müşahidə olunan nöqsanların yuxarıda qeyd olunduğu kimi ciddi, obyektiv hesab ediləcək qədər - sosial, siyasi, hərbi və s. amillər hesabına güclənən ağır iqtisadi şərait, təcili qərar qəbulunun zəruriliyi, həmçinin idarəedicilərin bazar münasibətlərinin fəlsəfəsini düzgün anlamaması, müvafiq təcrübələrinin olmaması kimi köklü səbəbləri olmuşdur. Fikrimizcə, həmin dövrdə iqtisadi siyasətin qeyd olunan xarakterinin mühüm bir səbəbi də, iqtisadiyyatda bazar münasibətlərinə keçidin zəruriliyinin qəbul edilməsi ilə bərabər, bu mərhələdə dövlətin rolu haqqında fikirlərin ziddiyyətliliyi olmuşdur.

Əsaslı transformasiya yaşamış ölkələrin təcrübəsində belə halların çox müşahidə olunur. Fikrimizcə bu onunla bağlıdır ki, geniş funksional arealda həlledici strukturlaşdırıcı amil dövlət quruluşunun özəlliyidir. Dünya təcrübəsində dövlət quruluşunun özəlliyinin geniş spektri, etatizm əsaslı “dövlət-maksimum”la , neoliberal “dövlət-minimum” və hətta anarxist “aqorizm” (dövlətin gərəksizliyi və onun funksiyalarını bazarın əvəz edə biləcəyinin iddia edən konsepsiyalar) və ya minarxizm (dövlətin funksiyalarını minimuma endirərək, onu yalnız azadlıq və mülkiyyətin qoruyucusu olaraq identifikasiyasını zəruri hesab edən konsepsiyalar) kimi modellərin mövcudluğu ilə şərtlənir. Aydındır ki, belə geniş diapozonda aralıq modellər hədsiz ola bilər. Başqa sözlə vurğulaya bilərik ki, dövlətin iqtisadi rolu haqqında yanaşmaların geniş tarix və spektrə malik olmasına rəğmən, univesal və daimi “konsepsiyası” yoxdur. Fikrimizcə, dövlətin iqtisadi idarəetmədə rolunu şərtləndirən əsas dominant məqam, inkişaf mərhələsinin və hədəflərinin seçimi hesab oluna bilər. Ona görədə, yuxarıda şərh edilmiş “sistem formalaşdırıcı” yanaşmalar prizmasında müasir Azərbaycanda dövlətin iqtisadi funksionallığının təkamülünü qiymətləndirməklə onun perspektivləri istiqamətlərinin müəyyənləşdirməyi məqsədəuyğun hesab edirik.

Milli iqtisadiyyatda dövlətin rolunun təkamülünün qiymətləndirilməsinin obyektivliyi baxımından əvvəlcə qeyd etməyi vacib sayırıq ki, müstəqilliyimizin bərpasından ötən dövr, bütövlükdə iqtisadi transformasiya dövrü olmuş və davam etməkdədir. Transformasiyanın uzunmüddətliliyi, fikrimizcə, liberal münasibətlər əsasında milli iqtisadi sistemin formalaşdırılması dövrünün, əvvəlki bölmələrdə qeyd edildiyi kimi, universal tranzit modelinin olmaması ilə yanaşı, qlobal elmi-texniki tərəqqi və iqtisadiyyatda fundamental dəyişiklərin sürətlənməsinin sinxronlaşması ilə bağlıdır. Müasir Azərbaycanda iqtisadi idarəetmədə dövlətin rolunu xarakterizə edən ən mühüm məqam, fikrimizcə ondan ibarətdir ki, yeni dövr müstəqilliyimizin ilk konstitutsiyasında, insan və vətəndaş hüquqları və azadlıqları ilə yanaşı, layiqli həyat səviyyəsinin təmin edilməsi, dövlətin ali məqsədi kimi müəyyənləşdirilmişdir. Bu məqsədin reallaşdırılması üçün isə zəruri şərtlər kimi, dövlət, bələdiyyə və xüsusi növlərə ayrılan mülkiyyətin toxunulmazlığı və müdafiə olunması bəyan edilmişdir. Dövlətin iqtisadi münasibətlər sistemində mövqeyini şərtləndirən digər konstitusion amillər kimi isə, təbii ehtiyatların dövlətə məxsusluğu təsbit edilməsi, həmçinin, Azərbaycanda dövlətin bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaratması, azad sahibkarlığa təminat verməsi, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi, xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalması haqqında öhdəlikləri mühüm əhəmiyyətə malikdir (1). Dövlətin iqtisadi fəaliyyətə münasibətlərini formalaşdıran ali hüquqi normaları azsaylı

olmaqla bərabər, fikrimizcə ümumən struktur formalaşdırıcı xüsusiyyətlərə malikdir. Belə ki, konstitutsiyada ölkədə iqtisadi nizamın formalşdırılması ilə birbaşa bağlı normalar:

- dövlətin müstəsna mülkiyyətində olmaqla Mərkəzi Bank vasitəsi ilə pul tədavülü, pul-kredit sisteminin formalaşdırılması və fəaliyyətinin təminatı;
- torpaq, mülkiyyət və əmlak münasibətləri və hüquqları, o cümlədən, xüsusi mülkiyyətin spesifikasiyası, dövriyyəsi və sosial öhdəlikləri;
- əmək münasibəti və hüquqları, sosial müdafiə və təminat mexanizminin formalaşdırılması;
- azad sahibkarlıq fəaliyyətinin təminatı və həmçinin, dövlətin sahibkarlıq sahəsində yalnız dövlət maraqları, insan həyatı və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirməsi haqqında öhdəlikləri əhatə edir.

Beləliklə təsbit edə bilərik ki, Azərbaycanda dövlətin iqtisadi idarəçilikdə iştirakının mühüm xüsusiyyəti, liberal iqtisadi münasibətlərin mahiyyətinə müvafiq formalaşan dövlət ödənişləri, vergi və rüsumların müəyyənləşdirilməsi və inzibatçılığının ehtiva edən təsərrüfat mexanizmi ilə şərtlənir. Müstəqillik dövründə milli iqtisadi inkişafımızın müşahidə olunan mərhələliyi, digər əlamətlərlə yanaşı, dövlətin iqtisadi fəaliyyətdə və xüsusilə idarəetmədə iştirakının xarakterinin mütəmadi dəyişmələri ilə şərtlənmişdir. Belə ki, Konstitusiyanın qəbul edildiyi 1995-ci ildə iqtisadi inkişafda dərin tənəzzülün tüğyan etməsi (illik inflyasiya 1700%-ə çatmışdı), real sektorun kəskin investisiya defisiti (1994-cü ildə imzalanmış Neft müqaviləsi və 1995-ci ilin aprelində Beynəlxalq Valyuta Fondu ilə imzalanmş STF krediti istisna olmaqla milli iqtisadiyyata investisiya qoyuluşu demək olar ki, baş verməmişdir), ərazilərimizin işğalı nəticəsində yaranan 1 milyon nəfərlik qaçqın və köçkün kütləsinin sosial təminatı kimi problemlər fonunda, ardıcıl olaraq, sərt pul-kredit siyasəti, radikal torpaq islahatları və Dövlət mülkiyyətinin özəlləşdirilməsi, iqtisadi idarəetmə sisteminin əsaslı islahatları, ünvanlı sosial siyasətin formalaşdırılması, beynəlxalq iqtisadi inteqrasiyanın sürətlənməsi və xarici investisiyanın cəlbinin stimullaşdırılması, neft gəlirlərindən uzunmüddətli inkişaf strategiyasınnın formalaşdırılması və s kimi trend yaradan hökumət siyasəti, mahiyyət etibarı ilə dövlətin iqtisadi funksionallığının təkamülü kimi identifikasiya edilə bilər. Müstəqilliyimizin ilk onilliyində, Azərbaycan Hökümətinin iqtisadi siyasətində taktiki məqsədlərin seçimini şərtləndirən amillər, cari, təxirəsalınmaz problemlərin həlli ilə yanaşı, iqtisadi fəallığın və iqtisadi sistemin”özünü inkişaf” potensialının bərpa edilməsi kimi müəyyənləşdirilə bilər. Belə identifikasiyanı və dövlətin iqtisadi funksionallığının yuxarıda şərh edilmiş qanunvericilik xüsusiyyətlərində nəzərə aldıqda isə, bu dövrdə Azərbaycanda dövlətin iqtisadi inkişafda iştirakını, “dövlət-maksimum” modelindən “dövlət-minimum”a tərəf uzaqlaşma trendinin formalaşması ilə yanaşı, Smitin “bazarın görünməz əli, iştirakçıların məqsədli rasional davranışları ilə yox, daha geniş mənəvi-mental dəyərlərlə şərtlənməsi” haqqındakı baxışlarına daha yaxın olmasını deyə bilərik. Bu dövrdə iqtisadi münasibətlərdə humanitar dəyərləri çox tez məhv edən bazar kriteriyalarının prioritetliyi ilə yanaşı, sürətli özəlləşdirmə vasitəsi ilə, Dövlətin iqtisadiyyatda “kiçik” və ya “böyük” yox, ”düzgün” ; “ucuz” və ya “bahalı” yox, cari milli maraqların təmin olunması prizmasından “səmərəli” olmasına yönəlik addımlar daha qabarıq təzahür etmişdir.

XXI əsrin başlanğıcında milli iqtisadi siyasətimizi dəyərləndirərkən, əvvəlki dövrün varisliyinin (funksional və institusional müstəvilərdə) qorunması ilə güclü kumilyativ effekti gözardı etməyərək, qlobal iqtisadi inkişafda yaranan yeni Millenium çağırışları və çoxdan gözlənilən “böyük neft erasının” yaxınlaşması ilə birgə, Yeni İslahatçı Dövlət menecmentinin fəaliyyətə başlamasının üst – üstə düşməsi faktını xüsusi qeyd etməyi məqsəduyğun hesab edirik. Bu dövrdə dövlətin bütövlükdə və o cümlədən, iqtisadi sahədə funksionallığını müəyyənləşdirən “start platforması”, ölkə Prezidentinin 2003-cü ildə bəyan etdiyi, “Stabillikdən - Tərəqqiyə doğru” inkişaf strategiyası hesab edilməlidir. “Yeni iqtisadiyyat” konsepsiyası tərəfdarlarının baxışlarına müvafiq, iqtisadi siyasətin

praqmatikliyinin gücləndirilməsi ideyalarına adekvat hesab olunan bu yanaşmanın ilk addımları olduqca inqilabi və sistemli xaraker daşıyırdı. Regional inkişafda tarazlığın bərpa edilməsi ilə, iqtisadi dövriyyənin genişləndirilməsi, əhalinin sosial rifahının yaxşılaşdırılması; qeyri-neft sektorunun inkişafının prioritetliyinin təmin edilməsi ilə milli iqtisadi inkişafın dayanıqlığı və sonrakı mərhələlərdə inklyuzivliyinin gücləndirilməsinə istiqamətlənmə; dövlət aktivlərinin zəruri infrastruktur yaradılmasına yönləndirilməsi ilə, dövlət büdcəsinin funksionallığının yüksəldilməsi və iqtisadi dövriyyənin genişləndirilməsi; iqtisadi qanunvericiliyin və təsərrüfat mexanizminin bazar yönümlü təkmilləşdirilməsinin yeni mərhələsinin başlanması; beynəlxalq iqtisadi inteqrasiya vektorunda yeni keyfiyyət parametrlərinin istifadəsi kimi, ayrılıqda və bütövlükdə sistem xarakterli tədbirlər milli iqtisadi siyasətin əsaslı yenidən istiqamətlənməyə başlamasını göstərir.

Bütövlükdə XXI əsrin ilk iyirmi ilində, dövlətin iqtisadi siyasətində vurğuların sürətli yenilənməsi müşahidə edilir. Bunun mühüm səbəbləri sırasında fikrimizcə böyük neft gəlirlərinin daxil olması ilə, dövlətin praqmatikliyinin gücləndirilməsi və inkişafın özünün generasiya etdiyi “akselelerasiya” effekti mühüm əhəmiyyətə malikdir. İqtisadi inkişafda qabarıq təzahür edən əlamətlər, regional inkişafda bərabərsizliyin yumşaldılması, iqtisadiyyatın diversifikasiyasının gücləndirilməsi, emal sənayesinin payının hasilat sənayesinə nisbətdə üstün artımı, dövlət büdcəsinin tənzimləyici xarakterini qorumaqla investisiya yönümlüyünün yüksəldilməsi, monetar və fiskal siyasətlərin korrelyasiyalılığının gücləndirilməsi vasitəsi ilə iqtisadi dövriyyədə səmərəli tələbin və onun doğurduğu özəl investisiya və istehlak xərclərinin stimullaşdırmaqla milli gəlirin sürətli artımını, iqtisadi siyasətin proqramlılığı və proqnozlaşdırılmasının gücləndirilməsi ilə yanaşı, onun formalaşmasında ictimai iştirakçılığın və şəffaflığın yüksəldilməsi, iqtisadi siyasətin sosiallığının və humanitar xarakterliliyinin gücləndirilməsi, bütövlükdə iqtisadi inkişaf modelinin “geoiqtisadi” xarakterinin gücləndirilməsi milli inkişaf modelinin əsaslı keyfiyyət yenilənməsinə məruz qaldığını göstərir. Qeyd olunan strukturlaşdırıcı əlamətlər, bu dövrdə milli iqtisadiyyatda dövlətin rolunun ordoliberaizmə yaxın mahiyyətli “yeni praqmatizm” və qarşılıqlı asılılığa malik elementlərdən formalaşmış “ölkə-sistem” (Vallerstayn konsepsiyası) modelinə transformasiyasını şərtləndirir. Belə model fikrimizcə, “dövlət-vətəndaş-biznes-ictimai qruplar” sistemində, C.Lokkun təklif etdiyi “ictimai müqavilə” yə yaxınlaşmaqla, siyasətin rasionalığı haqqındakı mülahizələri inkar edən ictimai seçim konsepsiyasına müvafiq olaraq, fərdilik prinsipinin həm də siyasətdə həlledici olmasını ehtiva edən “iqtisadi imperializm” ideyalarına daha yaxındır.

**Nəticə**

Beləliklə ümumiləşdirərək deyə bilərik ki, Azərbaycanda müstəqillik illərində dövlətin iqtisadi funksionallığının, ümumən yüksələn xətlə davam etməsinə rəğmən, şərtləndirci amillərinin, liberal prinsiplərin-bazar münasibətlərin dönməzliyinin təzahürü, fərdi xarakter daşıyan milli maraqlara adekvatlığın qaçılmazlığı və qlobal çağırışlarıa hədəflənmənin zəruriliyi olmasını təsbit edə bilərik. Belə yanaşma çərçivəsində, müasir Azərbaycanda dövlətin iqtisadiyyatda iştirakını xarakterizə edən funksionallığın güçləndirilməsi istiqamətləri fikrimizcə, “rasional-dövlət” və “dövlət-sistem” prinsiplərinə, yeni iqtisadiyyat konsepsiyasına adekvat “geoiqtisadi inkişaf” modelinin formalaşması hədəflərinə müvafiq olmalıdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı 1995.
2. Əhmədov M.A., Hüseyn A.S. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı: “İqtisad Universiteti”–2011.-120 s.
3. Həsənov R.T. Müasir Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin xüsusiyyətləri//Azərbaycanın vergi jurnalı, №2, 2012. -S.103-108.
4. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: Reallıqlar və perspektivlər. Bakı: «İqtisad Universiteti» 2009.

5. Ванберг В. “Теория порядка” и конституционная экономика // Вопросы экономики. 1995. № 12.
6. Нуреев Р.М. Государство и рынок (развитие представлений о роли государства в рыночной экономике) http://ecsocman.hse.ru/text/16209640/)
7. Колдоко Гж. «Мир в движении» (Пер. с пол. М.: Магистр, 2011. 575 с.)
8. Локк Дж. Два трактата о правлении. - Кн.2. // В кн.: Локк Дж. Сочинения: В 3 т. - Т.3. - М.: Мысль, 1988. - С.262-356).
9. Monçinckі Роль государство в экономике: со времен Смита до цифровых революций. Экономика и совр-ость 2018 №3 http://www.pte.pl/pliki/2/12/ )
10. Wallerstein, Randall, Michael, Derluguian, Calhoun 2016
11. Mazzucato Przedsiębiorcze państwo [Enterprising society]. Warszawa: Heterodox 2016
12. Sachs I. (1996) Wposzukiwaniu nowych strategii rozwoju [In search of new development strategies]. Gospodarka i Przyszłość, no. 1–4. S 44

***Надир Беймамед оглы Акбаров***

***Повышение экономической функциональности государства - как задача современного развития***

***Резюме***

*В статье исследуются теоретико-методологические и исторические особенности развития участия государства в экономической деятельности в условиях рыночных отношений и осмысливаются адекватные вызовы современной эпохи. Выявив основные направления теоретико-методологической эволюции, в статье отмечается, что участие государства в экономике направлено не столько на предельную полезность, сколько на повышение обще-материальной и моральной эффективности государственного управления, расширение его функциональности в соответствии с к требованиям времени. В статье также дана оценка характеристик участия государства в экономической деятельности в Азербайджане в период независимости как прямой вывод обширных исследований и подробно объяснен тот факт, что экономическая функциональность государства продолжала расти, несмотря на коренные экономические реформы.*

***Ключевые слова:*** *экономическая политика, функциональность, управление, ресурс, развитие, баланс, устойчивость, устойчивость, рациональность, социальное развитие*

***Nadir Baymammad Akbarov***

***Increasing the economic functionality of the state - as a challenge of modern development***

***Summary***

*In the article, the theoretical-methodological and historical development features of the state's participation in economic activity in the conditions of market relations are studied and the adequate challenges of the modern era are interpreted. Having identified the main trends of theoretical and methodological evolution, the article notes that the participation of the state in the economy is not only aimed at marginal utility, but rather at increasing the general - material and moral efficiency of state administration, expanding its functionality according to the requirements of the time. The article also evaluated the characteristics of the state's participation in economic activity in Azerbaijan during the period of independence as a direct conclusion of extensive research, and explained in detail the fact that the state's economic functionality continued to rise despite fundamental economic reforms.*

***Keywords***: *economic policy, functionality, management, resource, development, balance, sustainability, sustainability, rationality, social development*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 19.08.2022.***
***Çapa qəbul olunub: 25.08.2022.***